

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 93 (23.004)

18 may 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İsveç Krallığının ölkəmizdəki səfiri ilə görüşüb



Mayın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım İnqrid Tersman ilə görüşüb.

Səfiri Naxçıvanda görməyindən məmnunluğunu bildirən Ali Məclisin Sədri dedi ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan-İsveç əlaqələrində iştirak edir, Naxçıvan Dövlət Universiteti isə TEMPUS və ERASMUS proqramları çərçivəsində İsveç universitetləri ilə əməkdaşlığa malikdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının xarici ölkələrlə əlaqələrindən və mövcud əməkdaşlıq imkanlarından bəhs edən Ali Məclisin Sədri yeni texnologiyaların tətbiqi, turizm və digər sahələrdə əməkdaşlıq üçün potensialın olduğunu bildirdi.

Ali Məclisin Sədri səfər çərçivəsində Naxçıvan Dövlət Universitetində mühazirə oxumaq təşəbbüsünə görə xanım İnqrid Tersmana təşəkkür etdi.

Göstərilən xoş münasibətə görə minnətdarlıq edən İnqrid Tersman İsveç Krallığının Naxçıvan Muxtar Respublikasına səfər edən ilk səfiri olmaqdan məmnunluğunu bildirdi. Muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə tanışlığın əməkdaşlıq üçün faydalı olacağını qeyd edən diplomat bu sahədə səylərini artıracağını vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İran İslam Respublikasının nümayəndə heyəti muxtar respublikada səfərdə olub



***Mayın 17-də İran İslam Respublikasının müdafiə nazirinin müavini Mehdi Kərbəlayinin başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olub.***

Əvvəlcə nümayəndə heyəti ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Səfər çərçivəsində qonaqlar Naxçıvan Biznes Mərkəzi ilə də tanış olublar. Burada qonaqlara məlumat verilib ki, 2013-cü ildə istifadəyə verilən mərkəz muxtar respublikada biznesin inkişaf etdirilməsi, sahibkarlar arasında işgüzar əlaqələrin gücləndirilməsi, beynəlxalq və yerli əhəmiyyətli tədbirlərin keçirilməsinə xidmət edən mühüm məkandır.

Bildirilib ki, 1995-ci ildən başlayaraq muxtar respublikada 12 mindən çox sosial infrastruktur obyekti, 900-dən çox istehsal və xidmət sahəsi istifadəyə verilib. Yaradılmış şərait nəticəsində bu gün muxtar respublikada 372 növdə məhsulun istehsalına nail olunub, 344 növ məhsul hesabına daxili tələbat ödənilməkdədir.

Qeyd olunub ki, hazırda muxtar respublikada istehsal olunan ixrac-potensiallı yeyinti, tikinti, mebel və yüngül sənaye məhsulları Türkiyə, İran, Rusiya, Latviya, Ukrayna, Qazaxıstan, Çin, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri və İraqa ixrac edilir.

Biznes mərkəzində Naxçıvanda fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilən tikinti materialları, mebel məmulatları, mineral sular, ət və süd məhsulları, quş əti, yumurta və qənnadı məhsulları haqqında qonaqlara məlumat verilib. Diqqətə çatdırılıb ki, muxtar respublikada aqrar sektorun inkişafı üçün yeni metodlar tətbiq olunur, fermer təsərrüfatlarının və bütünlükdə sahibkarlığın inkişafı məqsədilə rayon və kəndlərdə müasir texnologiyalara əsaslanan yeni müəssisələr yaradılır.

Nümayəndə heyətinə muxtar respublika əhalisinin mövsümi tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rolu olan istixana kompleksləri ilə də bağlı məlumat verilib. Naxçıvan Avtomobil Zavodunun istehsal etdiyi avtomobillər haqqında da qonaqlar məlumat alıb, "Naxtel 4G" mobil rabitə operatorunun imkanlarının nümayiş olunduğu stendə maraqla tamaşa ediblər.

İran İslam Respublikasının müdafiə nazirinin müavini Mehdi Kərbəlayi muxtar respublikaya səfəri çərçivəsində bir sıra görüşlər keçirib.

**✍ Əli CABBAROV**

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş təşkil edilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq, Dövlət və bələdiyyə idarəetməsi ixtisaslarının tələbələri ilə görüş keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev bildirib ki, sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə nazirlik hər il öz iş planına tələbələrin hamiliyi ilə bağlı bənd daxil edir və onlarla görüşlər keçirilir.

Diqqətə çatdırılıb ki, iki gün ərzində tələbələr nazirliyin aparatında, Penitensiar Xidmətində, Məhkəmə Ekspertizası Mərkəzində və Naxçıvan Şəhər Bələdiyyəsində olub, bu qurumların iş fəaliyyəti ilə yaxından maraqlanıblar.

Naxçıvan Dövlət Universiteti ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi arasında qarşılıqlı əməkdaşlığı yüksək qiymətləndirən Suliddin Əliyev bu istiqamətdə fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyini vurğulayıb.

Tədbirdə Bələdiyyələrlə İş Mərkəzinin rəis əvəzi, I dərəcəli ədliyyə qulluqçusu Cəfər Zülfüqarov, Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, ədliyyə müşaviri Rafiq Cəfərov çıxış edərək aidiyyəti sahələr üzrə tələbələrə ətraflı məlumat veriblər.

Sonra tələbələrin sualları cavablandırılıb.

Tədbirə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev yekun vurub.

**✍ Nail ƏSGƏROV**

## Dövlət vergi orqanlarında işə qəbul olunmaq istəyənlər üçün test imtahanı keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində muxtar respublikanın vergi orqanlarında vakant vəzifələrin tutulması üçün bu il fevral ayının 19-da elan edilmiş müsabiqənin test imtahanı keçirilib.*



Müsabiqəyə 25 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 28 namizəd sənəd təqdim edib. Test imtahanında keçid balını toplamış 7 namizəd müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verildikdən sonra ixtisas üzrə 90, məntiqi təfəkkürün yoxlanılması üzrə 10 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün 2 saat 30 dəqiqə vaxt verilib.

Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən dərhal sonra namizədlərə cavab kartı və nəticəyə dair arayış təqdim olunub. Test imtahanında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər.

İmtahanın nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində (*www.dqmk.nmr.az*) yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Quruculuq ünvanlarının sayı artmaqdadır





Hər il olduğu kimi, 2018-ci ildə də Ordubad rayonunda müxtəlif təyinatlı quruculuq tədbirləri həyata keçirilir. Yeni quruculuq ünvanlarından biri də əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə tikilən rabitə evinin binasıdır. Artıq obyektdə əsas inşaat işləri başa çatdırılıb. Hazırda binanın fasadına mərmər üzlük çəkilir və həmin ərazidə abadlaşdırma işləri görülür, avtomobil yolunun kənarlarında yeni səki və pilləkənlər salınır.

Rayonun ən iri yaşayış məntəqələrindən biri olan Dəstədə məktəb, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri üçün binaların tikintisi aparılır. Məktəb binası 900 şagird yerlik olacaq. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət nəzərdə tutulmuş təhsil ocağının binasında dərslərin müasir tələblər səviyyəsində tədris olunması üçün hər cür şərait yaradılacaq. Kənd mərkəzi və həkim ambulatoriyası 2, xidmət mərkəzi isə 1 mərtəbəli binada yerləşəcək.

Yaşayış məntəqəsinin daxili avtomobil yolları da yenidən qurulur. Culfa Rayon Yol Tikinti İdarəsinin inşaatçıları 15 kilometr uzunluğunda olacaq kənddaxili yolların asfaltlanması üçün hazırlıq işlərini davam etdirirlər.

Ordubad rayon mərkəzinin "İstanbul" küçəsində isə 24 mənzilli 5 mərtəbəli yaşayış binasında əsaslı təmir işləri aparılır. Binanın fasadı suvanaraq boya ilə rənglənib, çardaq yenidən qurulub, qapı-pəncərələr yeniləri ilə əvəz edilib.

Rayon İcra Hakimiyyətinin 3, şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin isə 2 mərtəbəli binaları da əsaslı şəkildə yenidən qurulur.

**Abbas SEYİD**



# Prezident İlham Əliyev: “Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır”

*Görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində bu gün Naxçıvan Muxtar Respublikasında qazanılan uğurlar qədim diyarımızda çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılmasını, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasını, elmin, mədəniyyətin dinamik inkişafını təmin edib. Sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının dəqiqliklə icrası, islahatların günün tələbləri səviyyəsində aparılması Vətənə, xalqa, dövlətə, dövlətçiliyə xidmət meyarları çərçivəsində görülən bütün işlərin əsasını təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfərə gəlməsi və 135-dən çox müxtəlif təyinatlı mühüm əhəmiyyətə malik obyektin açılışında iştirak etməsi də Naxçıvanın sürətli sosial-iqtisadi tərəqqisinin bariz nümunəsidir. Bu mənada, mayın 16-da dövlətimizin başçısının Naxçıvan Muxtar Respublikasına səfəri əlamətdar hadisələrlə yadda qaldı.*

### İnkişafın, yüksəlişin göstəricisi – yeni və möhtəşəm quruculuq ünvanları

Ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin işğaldan, labüd təhlükələrdən xilas edərək müasir inkişaf yoluna çıxardığı Naxçıvan bu gün böyük quruculuq proqramlarının əzmlə həyata keçirildiyi diyara çevrilib. Muxtar respublikanın sürətli və hərtərəfli yüksəlişi müstəqil Azərbaycan dövlətinin tarixi nailiyyətlərindən biri, müasir inkişafın real təzahürüdür. Çünki 28 illik ağır blokadanın hökm sürdüyü bir vaxtda bu şəkildə tərəqqiyə nail olmaq təcrübəsinə indiyədək dünyanın heç bir yerində rast gəlinməyib. Bütün bunları reallaşdırmaq üçün gərək insanlarda yüksək vətənpərvərlik ruhu, Vətən sevgisi, yurda bağlılıq, xalqa məhəbbət, dövlətə, dövlətçiliyə sədaqət hissləri olsun. Naxçıvanda məhz bu var.

Bu gün Naxçıvan öz qədimliyini və tarixiliyini qorumaqla sürətlə inkişaf edir. Ötən müddətdə inkişaf proseslərinin ardıcıl xarakter alması nəticəsində sənaye məhsulunun həcmi 34,4, əsas kapitala yönəldilmiş investisiyalar 15,9, tikinti-quraşdırma işləri isə 15,2 dəfə artıb, irimiqyaslı infrastruktur layihələri yerinə yetirilib, elektrik stansiyaları istismara verilib, içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri həyata keçirilib, müasir avadanlıqla təchiz edilmiş idman kompleksləri, təhsil və səhiyyə müəssisələri, mədəniyyət və turizm obyektləri inşa edilib, yeni yollar çəkilib, istehsal müəssisələri yaradılıb, 72 mindən çox yeni iş yeri açılıb.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu və dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən “Caspian European Club” 2017-ci ildə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq liderliyə yüksəlib.

Görülən işlərin məntiqi nəticəsi və davamı olaraq dövlətimizin başçısının mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı növbəti ictimai əhəmiyyətli obyektlərin – “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının, Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin, Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 nömrəli tam orta məktəbin açılışları oldu.

Naxçıvan Müəllimlər İnstitutunun yeni binası ilə tanışlıqdan sonra Prezident cənab İlham Əliyev ali təhsil ocağının kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışı zamanı muxtar respublikada aparılan abadlıq-quruculuq işləri, qədim diyarın sürətli inkişafı barədə danışaraq deyib: ***“Bu binanın tikilməsi onu göstərir ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm”.***

Naxçıvanda insan amili həmişə ön planda olub. Muxtar respublikada abadlıq-quruculuq işlərinin sürətlə aparılması, təhsil, səhiyyə müəssisələrinə diqqətin artırılması, xidmət və infrastruktur sahələrində işin müasir dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində görülən kompleks işlərin məqsədi də insanların rahat yaşayışının tam təmin olunması, sosial rifah halının daha da yaxşılaşdırılmasıdır. Bu baxımdan “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin həyata keçirilməsi, Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi mühüm əhəmiyyətə malik sosial layihələr kimi diqqəti cəlb edir. Belə ki, muxtar respublikanın ən böyük bölgəsində reallaşdırılan layihə nəticəsində Şərur şəhərində, Mahmudkənddə və Zeyvə kəndinin bir hissəsində 13 min 500 nəfər Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq 24 saat təmin ediləcək. Naxçıvan şəhərində kompleksin istifadəyə verilməsi isə 121 min istifadəçiyə birbaşa fayda verəcək və 500 hektar torpağın suvarılmasına şərait yaradacaqdır.

Qədim diyarda parlaq gələcəyin qarantı olan təhsilin inkişafı da diqqətdə saxlanılır. Təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirilir, maarifçilik hərəkatının inkişaf etdirilməsi və müasir təhsil infrastrukturunun yaradılması istiqamətində mühüm nailiyyətlər qazanılır. Dövlət başçısının muxtar respublikaya səfərlərinin, demək olar ki, hamısında elm və təhsillə əlaqədar yeni obyektlərin açılışları olub. Naxçıvan Müəllimlər İnstitutunun, 6 nömrəli tam orta məktəbin yeni binalarının açılışı da maddi dəyərlərin insan kapitalına çevrilməsi istiqamətində atılan növbəti önəmli bir addım kimi diqqəti cəlb edir.

### Təhlükəsizliyi tam təmin edilən Naxçıvan bu gün düşmənlərimizin kabusuna çevrilib

Qədim Naxçıvan Azərbaycan və ümumilikdə, Türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm bir məkandır. Ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub, müdrik dövlət xadimi siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində həmişə Naxçıvanın təhlükəsizliyinin möhkəmlənməsinə və inkişafına xüsusi diqqət və qayğı göstərib. Dahi şəxsiyyətin siyasi kursunu uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də alınmaz qalamız olan Naxçıvanda ordu quruculuğuna xüsusi diqqət yetirir. Ölkə rəhbəri öz çıxışlarında dəfələrlə vurğulayıb ki, *Naxçıvan strateji mövqedə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Bu mənada, muxtar respublikaya göstərilən diqqət və qayğı Azərbaycan dövlətinin milli maraqlarının tələbidir.*

Muxtar respublikamızda ordu quruculuğunun əsas ünvanlarından biri olan “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası da dövlətimizin qayğısı ilə əhatə olunub. Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci il avqustun 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılması, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin təşkilinə qədər bütün proseslər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Əlahiddə Sərhəd Diviziyasının fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Diviziyanın maddi-texniki bazası daha da gücləndirilib, zastavalarda müasir şərait yaradılıb. Muxtar respublikada havada, suda və quruda sərhədlərin etibarlı şəkildə qorunmasını təşkil etmək üçün bütün zəruri tədbirlər görülüb. Bu işlərlə yanaşı, sərhədçilərin mənzil-məişət, sosial məsələlərinin həllinə də daim diqqət göstərilir. Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində də ən müasir tələblərə cavab verən şəraitin yaradılması görülən işlərin tərkib hissəsini təşkil edir. Mayın 16-da dövlətimizin başçısı Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olub.

Bu gün muxtar respublikanın müdafiə potensialı və gücü durmadan artır, müdafiə sistemi təkmilləşdirilir, hərbi birliklərin döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılır. Əlahiddə Ümumqoşun Ordunun əməliyyat işləri üzrə hazırlığının daha da gücləndirilməsi məqsədi ilə xeyli sayda təlimlər keçirilib. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikada birləşmə və hissələrin döyüş qabiliyyəti və peşəkarlığı artırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı xeyli yüksəldilib. Məhz bunun nəticəsində Əlahiddə Ümumqoşun Ordu 2017-ci ildə hazırlıq planına əsasən görülən işlərin nəticələrinə, döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb. Bunu da xatırladaq ki, ötən il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad da ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü bütün dünyaya nümayiş etdirdi.

Son illərdə Əlahiddə Ümumqoşun Ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində görülən tədbirlər daha geniş miqyasda davam etdirilir. Dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır. Mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun “N” hərbi hissəsinə gələn ölkə rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyev silahlanmaya yeni qəbul edilən hərbi texnikalarla tanış olub. Onlardan “ORBİTER-3B” pilotsuz uçuş aparatı, qarnizonun arsenalına yeni qəbul olunmuş 60, 82 və 120 millimetrlik minaatanlar üçün simulyator dəsti, 82 millimetrlik minaatan batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti, “Su-25” hücum təyyarəsi, “S-125-2 TM” zenit-raket kompleksinin nəqliyyat doldurucu maşını, “SAND CAT” zirehli avtomobili, 152 millimetrlik “QİASİNT-B” topu, müasir döyüş maşınlarından sayılan “BTR-82A” zirehli transportyor, “TOS-1A” ağır odatan yaylım atəş sistemi, “XRİZANTEMA-S” özüyeriyən tank əleyhinə raket kompleksi Əlahiddə Ümumqoşun Ordunun silah arsenalının günbəgün genişləndirildiyini, maddi-texniki bazasının daha da gücləndirildiyini göstərir.

Prezident cənab İlham Əliyev Əlahiddə Ümumqoşun Ordunun “N” hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında da iştirak edib, Təlim-Tədris Mərkəzi ilə tanış olub.

Dövlətimizin başçısı Naxçıvanın təhlükəsizliyinin tam təmin olunması istiqamətində çox mühüm tədbirlərin həyata keçirildiyini bildirib: ***“Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir”.***

### Qayğının növbəti təzahürü

Tarix baxımından çox qısa bir dövr ərzində muxtar respublikada yuxarıda sadalanan bu qədər nəhəng işlərin görülməsi, qədim diyarın başdan-başa abadlaşdırılması həm də Azərbaycan Prezidentinin imzaladığı dövlət proqramlarından, fərman və sərəncamlardan irəli gələn vəzifələrin vaxtında reallaşdırılması nəticəsində mümkün olub. Muxtar respublikamıza hər səfərində ölkə rəhbəri burada aparılan genişmiqyaslı, möhtəşəm abadlıq-quruculuq işləri ilə yerindəcə tanış olur, qarşıda duran vəzifələri müəyyənləşdirir, lazımi tövsiyələrini verir.

Muxtar respublikaya növbəti səfərindən sonra Prezident cənab İlham Əliyevin mayın 16-da “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında”, “Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında”, “Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında”, “Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi haqqında” sərəncamları imzalaması da ölkə rəhbərinin qədim diyara böyük diqqət və qayğısının növbəti təzahürü idi. Həmin sərəncamlarla sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsinə, yol infrastrukturunun gücləndirilməsinə, enerji təminatı mənbələrinin şaxələndirilməsinə, kənd təsərrüfatı sahəsinin inkişafın daha da sürətləndirilməsi üçün mütərəqqi meliorasiya tədbirlərinin reallaşdırılmasına, ümumilikdə, 55 milyon manat ayrılıb ki, bu da həmin sahələrdə görülən işlərin sona çatdırılmasına şərait yaradacaqdır. Bu, qədim diyarda gerçəkləşdirilmiş böyük yeniləşmələrə verilən əhəmiyyətin ifadəsidir.

İnamla deyə bilərik ki, dövlətimizin başçısının mühüm əhəmiyyətə malik olan bu səfəri Naxçıvan Muxtar Respublikasının inkişafında davamlı ənənələrin, irəliləyişin və müasirləşmənin yeni səviyyəsini bir daha nümayiş etdirdi. Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin arzuladığı kimi Naxçıvanın uğurlu və hərtərəfli sosial-iqtisadi inkişafının nəticəsində mümkün olub. Məhz bunun sayəsində Naxçıvan bu gün İslam Mədəniyyətinin Paytaxtı, həmçinin ölkəmizin Gənclər Paytaxtı kimi mühüm statusları daşıyır. Məqaləni Prezident cənab İlham Əliyevin dediyi fikirlərlə tamamlamaq istərdim: ***“Bu mühüm işlərin görülməsi bir daha onu göstərir ki, Naxçıvanın çox böyük potensialı var. Bir daha demək istəyirəm ki, burada görülən işlər çox böyük qiymətə layiqdir.***

***Onu da bildirmək istəyirəm ki, bu il Naxçıvan bütün İslam dünyasında artıq özünü göstərəcək. Çünki bu il Naxçıvan “İslam Mədəniyyətinin Paytaxtı” kimi şərəfli adı daşıyır. Bir neçə il bundan əvvəl Bakı bu ada layiq görülmüşdür və biz o vaxt ISESCO-ya müraciət etmişdik ki, biz istəyirik ikinci Azərbaycan şəhəri – məhz Naxçıvan şəhəri bu ada layiq görülsün. Çünki Naxçıvan buna layiqdir. Bilirəm ki, bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcəkdir, çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan var – bu məkanın adı Naxçıvandır”.***

**Rauf KƏNGƏRLİ**



***Muzeylər milli özünəməxsusluğu nümayiş etdirən, milli-mənəvi dəyərləri toplayan, keçmişlə bağlı həqiqətləri təcəssüm etdirən, qoruyan və təbliğ edən mədəniyyət ocaqlarıdır. Bu gün muzeylərimiz zəngin sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi bir şəbəkəyə malik olub muxtar respublikamızın bütün bölgələrini əhatə edir.***

*18 may Beynəlxalq Muzeylər Günüdür*

# Muzeylər xalqımızın maddi-mənəvi sərvətlər xəzinəsidir

Naxçıvanda muzey işinin özünəməxsus inkişaf tarixi vardır. XIX əsrin sonlarında böyük yazıçı-dramaturq Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində muzey yaratmaq təşəbbüsü ilə Xalq Məktəbləri İdarəsinə yazılı müraciət etmiş və Azərbaycanda ilk dəfə olaraq bu kənd məktəbində Naxçıvanın tarixinə dair maddi-mədəniyyət nümunələrinin toplandığı muzey yaratmışdır. 1924-cü ildə Naxçıvanda Tarix-Etnoqrafiya Muzeyi təşkil edilmiş, 1926-cı ildə isə Naxçıvan şəhər sakini Balabəy Əlibəyovun yaratdığı şəxsi muzey dövlət muzeyi kimi fəaliyyət göstərməyə başlamışdır. 1925-ci ildə Azərbaycan üzrə yaradılan cəmiyyətin bir şöbəsi kimi fəaliyyət göstərməyə başlayan "Naxçıvanı Tədqiq və Tətəbbö" Cəmiyyətinin də muzeyin zənginləşməsində xidmətləri olmuşdur.

Ölkəmizdə muzey işinin, muzeyşünaslığın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə ötən əsrin 70-80-ci illərində Azərbaycanda yeni muzeylərin yaradılması, onların bazasının möhkəmləndirilməsi, muzey fondlarının zənginləşdirilməsi və ekspozisiyaların müasir şəkildə qurulması üçün mühüm tədbirlər həyata keçirilmişdir. Həmin dövrdə ölkəmizdə bu sahəni inkişaf etdirmək üçün Azərbaycan Muzeylər İdarəsi, Muzey İşi üzrə Respublika Elmi-Metodik Mərkəzi, Muzeylərin Bədii Tərtibatı Müəssisəsi, Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi kimi qurumlar yaradılaraq fəaliyyətə başlamışdır. Qısa zaman ərzində Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır. Məhz bu dövrdə Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarında tarix-diyarşünaslıq muzeyləri fəaliyyətə başlamışdır. Ölkəmizdə 1969-cu ilədək 29 muzey fəaliyyət göstərmişdirsə, ümummilli liderimizin rəhbərliyi illərində 111 müxtəlif profilli muzey yaradılmışdır.

***"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır"***, – deyən ümummilli lider Heydər Əliyevin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, bu sahədə qanunvericilik bazası yaradılmışdır. Bu dövrdə "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri, muzeylərin hüquqları, muzey fondları, muzeylərə dövlət qayğısı və nəzarəti artırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahədə uğurlu addımlar atılır, mühüm işlər həyata keçirilir. Dövlət başçısının "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı və "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 22 may tarixli Sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında da muzeylərin fəaliyyəti diqqətdə saxlanılır, muzey ekspozisiyaları zənginləşdirilir, yeni muzeylər yaradılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muzeylərimiz müasir tələblər əsasında yenidən qurulmuş, bu sahədə mühüm işlər həyata keçirilmişdir. 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda muxtar respublikada 1 rəsm qalereyası və 29 müxtəlif profilli muzey mövcuddur. Bu mədəniyyət ocaqlarında xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 130 mindən çox eksponat toplanmışdır. Ötən il muxtar respublikanın muzeylərinə 1340 eksponat daxil olmuşdur. Bu ilin birinci rübündə isə muzeylərimiz 402 yeni eksponatla zənginləşdirilmişdir. 2012-ci ildə Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə yenidən qurulmuş, 2013-cü ildə "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzey üçün bina istifadəyə verilmişdir. "Gəmiqaya" Tarix-Bədii Qoruğu dəniz səviyyəsindən 3700 metr yüksəklikdə yerləşməklə açıq səma altında nadir muzeylərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində daha bir muzey yaradılmışdır. 2014-cü ildə Şahbuz rayonundakı Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi istifadəyə verilmişdir. 2015-ci ildə Naxçıvan şəhərində Xatirə Muzeyinin, Şərur rayonundakı Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin yeni binaları, həmçinin Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyi fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonunda "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən qala bərpa olunmuş və burada muzey yaradılmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvanda Duz Muzeyi yaradılmış, aprelin 25-də istifadəyə verilmişdir.

Muxtar respublika əhəmiyyətli muzeylərlə yanaşı, tarix-diyarşünaslıq muzeyləri, ev-muzeyləri, xatirə muzeyləri, muzey kompleksləri, dövlətçilik tariximizlə bağlı muzeylərin yaradılması həmişə diqqət mərkəzində saxlanılır. Bütün bunlar mədəni irsimizin qorunması, gənc nəslin mənəvi-estetik, ideya-siyasi dünyagörüşünün zənginləşməsində və vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Muxtar respublikanın rayonlarında da muzeylərin fəaliyyət göstərməsi bura gələn insanların zəngin tarix və mədəniyyətimizlə yanaşı, görkəmli şəxsiyyətlərimiz haqqında da ətraflı məlumat almalarına imkan verir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərimizin həyatlarını, yaradıcılığını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir".***

Gənc nəslin muzeylərimizdə olması onların qədim və zəngin tariximiz və bu günümüz haqqında dərin biliklərə, geniş dünyagörüşünə malik olmasına, milli dəyərlərə, milli-mədəni və tarixi irsimizə məhəbbət ruhunda formalaşmasına xidmət edir. Bunun üçün muxtar respublikanın təhsil müəssisələrinin muzeylərlə əlaqələrinə xüsusi diqqət ayrılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən muxtar respublikada məktəb-muzey şəbəkəsi yaradılmış, Azərbaycanın tarixi və mədəniyyəti, görkəmli şəxsiyyətlərimizlə bağlı distant dərslərin keçilməsinə başlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən muxtar respublikanın ali təhsil müəssisələrində muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, tarix, turizm-otelçilik ixtisasları üzrə təhsil alan tələbələr üçün açıq dərslərin təşkili davam etdirilir. Ötən il muzeylərdə 436 açıq dərs keçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları kollektivlərinin bu mədəniyyət müəssisələrinə gedişi maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəni irsimizin və dövlətçilik ənənələrimizin hərtərəfli öyrənilməsinə geniş imkanlar açmışdır. Ötən il muzeylərimizi 445 mindən çox tamaşaçı ziyarət etmişdir ki, onlardan 110 mindən çoxu xarici ölkə vətəndaşıdır. Bu ilin I rübündə isə muzeylərimizdə 110 mindən artıq tamaşaçı olmuşdur ki, onların da 41 mindən çoxu xarici ölkə vətəndaşıdır. Naxçıvanda muzeylərin internet saytları istifadəyə verilmiş, saytlarda muzey ekspozisiyalarını internet üzərindən virtual olaraq birbaşa izləmək imkanı yaradılmışdır.

Muxtar respublikada muzey işçilərinin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülür, medallarla təltif edilirlər.

*Bu gün muxtar respublikamızın geniş muzey şəbəkəsinə malik olması qədim diyarda tarixi-mədəni irsimizin qorunub yaşadılması sahəsində görülən işlərin nəticəsidir.*

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin mətbuat xidməti***





# Mahnı müsabiqəsi keçirilib



***Mayın 17-də Naxçıvan Dövlət Filarmoniyasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş mahnı müsabiqəsi keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planının təsdiq edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli Sərəncamından irəli gələn vəzifələr uğurla icra olunur. Tədbirlər planına əsasən ümummilli liderə həsr olunmuş şeir və mahnı müsabiqələrinin keçirilməsi nəzərdə tutulub. Bugünkü mahnı müsabiqəsi Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və Bəstəkarlar Təşkilatının birgə təşkilatçılığı ilə həvəskar və professional bəstəkarlar arasında keçirilir. Müsabiqənin keçirilməsində əsas məqsəd dahi Heydər Əliyevin mənəvi irsindən faydalanmaqla Naxçıvan Muxtar Respublikasında yetişən gənc nəslin bədii və estetik zövqünün formalaşmasına kömək etmək, istedadlı bəstəkarları aşkar edib üzə çıxarmaq, onların yaradıcılıq potensialını inkişaf etdirməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təsdiq edilmiş müvafiq əsasnaməyə əsasən muxtar respublikamızda yaşayan həvəskar və professional bəstəkarlıqla məşğul olan yaşı 18-dən yuxarı şəxslər müsabiqədə iştirak etmək hüququ qazanıb.

Yaradılmış Təşkilat Komitəsi müsabiqənin keçirilməsi üçün lazımi tədbirləri görüb, münsiflər heyəti müəyyən olunub. Müsabiqənin gedişi zamanı təqdim olunmuş əsərlər 10 ballıq sistem üzrə gizli səsvermə yolu ilə qiymətləndiriləcək və qaliblər müəyyən ediləcəklər.

Nazir çıxışının sonunda müsabiqənin iştirakçılarına və münsiflər heyətinə uğurlar arzulayıb.

Tədbirin aparıcısı müsabiqənin münsiflər heyətini iştirakçılara təqdim edib.

Müsabiqədə ümummilli liderə həsr olunmuş peşəkar və həvəskar bəstəkarların 11 mahnısı səsləndirilib. Naxçıvan Musiqi Kollecinin, Naxçıvan Dövlət Filarmoniyasının, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin xor kollektivləri, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Elçin Nağıyev, Yaşar Qurbanov, Azər Cəfərli, gənc müğənni Rahim Əsgərzadə müsabiqəyə təqdim olunmuş mahnıları ifa ediblər. "Fəxr edirəm ki, mən azərbaycanlıyam" odası, "Ömrün Heydər zirvəsi", "Ulu öndər", "Sönməyən Günəşim" və başqa mahnılar maraqla qarşılanıb.

Bütün əsərlər ifa edildikdən sonra münsiflər heyəti qalibləri müəyyən etmək üçün müzakirələr aparıb. Tədbirdə "Salnamə" sənədli filmlər studiyasının istehsal etdiyi "Heydər Əliyev – Azərbaycan mədəniyyətinin hamisi" sənədli filmi nümayiş etdirilib.

Müsabiqədə Naxçıvan Muxtar Respublikası Əməkdar incəsənət xadimləri Yaşar Xəlilov və Şəmsəddin Qasımov müvafiq olaraq III və II yerlərə layiq görülüblər. Fəridə Ağayeva isə müsabiqənin qalibi olub. Qaliblərə diplomlar təqdim olunub.

Tədbirin sonunda Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov çıxış edərək müsabiqənin təşkilatçılarına minnətdarlıq edib, qalibləri təbrik edərək onlara yaradıcılıq uğurları arzulayıb.

**Əli RZAYEV**

# Naxçıvan Dövlət Rəsm Qalereyası qədim diyarımızın təbliğində böyük rol oynayır



***Ötən əsrin 70-80-ci illərində bütün sahələr kimi, milli mədəniyyətimiz də muxtar diyarımızda öz inkişaf dövrünü yaşayıb. Sənətə, sənət adamlarına böyük qayğı ilə yanaşan ümummilli liderimiz Heydər Əliyevin səyi və köməyi nəticəsində incəsənətin bir çox sahələrində olduğu kimi, rəssamlıq sənətində də nailiyyətlər, uğurlar qazanılıb. Bunu 1982-ci ildə ulu öndər Heydər Əliyevin himayəsi ilə yaradılan Naxçıvan Dövlət Rəsm Qalereyasının timsalında da aydın görmək olar.***

Bu mədəniyyət müəssisəsi ilə bağlı bizi maraqlandıran sualları Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü, Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli cavablandırdı. O bildirdi ki, muxtar respublikada ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi yaradıcılıq təşkilatlarını, o cümlədən Naxçıvan Dövlət Rəsm Qalereyasını da əhatə edib. 1982-ci ildə ulu öndərin təşəbbüsü ilə yaradılan qalereya 2000-ci ildən fəaliyyətinə Heydər Əliyev Sarayında davam edib. 2009-cu ildə binada aparılan əsaslı bərpa və yenidənqurma işlərindən sonra sarayın 3-cü mərtəbəsində qalereya üçün inzibati otaqlar və geniş ekspozisiya zalı istifadəyə verilib. Əsasən muxtar respublika rəssamlarının əsərləri nümayiş etdirilən muzeytipli müəssisənin fondunda 70-dən çox rəssamın 400-ə yaxın əl işi mühafizə olunur. Bunlardan 80-i ekspozisiya zalında nümayiş etdirilir. Qalereyada Azərbaycanda, onun Naxçıvan diyarında yaşayıb, fəaliyyət göstərən rəssamlarla yanaşı, əcnəbi rəssamların da rəsm əsərləri qorunub saxlanılır, nümayiş olunur.

Qalereyanın ekspozisiya zalında nümayiş etdirilən əsərlərlə də tanış olduq. Müxtəlif guşələrdən ibarət olan zalın birinci guşəsi ulu öndərimizə həsr olunmuş rəsm əsərləri və büstlərdən ibarətdir. Qarşısında dayanıb, maraqla izlədiyim dəyərli eksponat haqqında məlumat verən bələdçi deyir ki, bu əsər Rəfael Qədimovun müəllifi olduğu, 1998-ci ildə kətan üzərində yağlı boya ilə işlənmiş “Ümidimiz sənədir” adlı rəsm əsəridir. Burada ulu öndərə həsr olunmuş digər dəyərli sənət əsərlərindən Tələman Abdinovun “Zamanın atəşfəşanlığı”, Nəriman Əliyevin “Heydər Əliyevin portreti”, Abbas Yaycılının “Zirvədə”, Şamil Mustafayevin “Heydər Əliyev” əsərləri də guşəni zənginləşdirən maraqlı rəsmlərdir.

Zalın 2-ci guşəsində yer alan əsərlər haqqında məlumat verən bələdçi bildirir ki, burada 2012-ci il 18-20 iyun tarixlərində keçirilən “Naxçıvan – bəşəriyyətin beşiyi” adlı Beynəlxalq Rəsm Festivalında qalib gələn rəsm əsərləri sərgilənir. Naxçıvan şəhərindəki Açıq Səma Altında Muzeydə təşkil olunan festivalda dörd ölkədən 24 tanınmış rəssam iştirak edib. Yurdumuzun gözəllikləri, tarixiliyi, yüzilliklərə şahidlik edən Haçadağ və Möminə xatın türbəsi, daş qoç heykəllər, həmçinin insanlarda milli dəyərləri formalaşdıran, onu vətənpərvərlik duyğuları ilə zənginləşdirən bir çox əsərlər bu guşədə nümayiş etdirilir.





Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı”na əsasən 2014-cü il may ayının 20-23-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan “Naxçıvan – bəşəriyyətin beşiyi” adlı II Beynəlxalq Rəsm Festivalında 7 ölkədən 31 rəssamın rəsm əsərlərinə də ekspozisiya zalında rast gəlmək olar. Həmçinin 2016-cı il may ayının 25-27-də “Əlincəqala” tarixi abidəsində keçirilən “Naxçıvan – bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalında 8 ölkədən festivala qatılan 50-yə yaxın rəssamın qədim Naxçıvanın əsrarəngiz gözəlliklərini, görkəmli şəxsiyyətlərini, gözəl təbiət mənzərələrini, tarixi abidələrini əks etdirən əsərləri ziyarətçilər tərəfindən maraqla qarşılanır. Burada sərgilənən əsərlər əcnəbilərdən qazaxıstanlı rəssam Esenqali Sadırbayevin “Naxçıvan dəyərləri”, iranlı rəssam Səyid Əyyaminin “Cənubdan İlanlıdağ”, rus rəssam R.F.Qolovanovun “Şair və memar”, türk rəssam Hülya Sezginin “Naxçıvanqala” əsəri və digərləri ekspozisiyanı zənginləşdirən eksponatlar sırasındadır.

Ekspozisiyanın növbəti guşəsindəki Azərbaycanın Xalq rəssamlarından Mikayıl Abdullayevin, Maral Rəhmanzadənin, Hüseyn Əliyevin əsərləri yüksək sənətkarlıq xüsusiyyətləri ilə diqqəti çəkir.

Üçüncü guşədə Naxçıvanın gözəl təbiət təsvirlərinə həsr olunmuş mənzərə janrına aid rəsm əsərləri özünə yer alıb. Burada Azərbaycan Respublikasının Əməkdar rəssamı Tələman Abdinovun, Qədirulla Bağırovun, Hamlet Pənahovun və digər görkəmli rəssamların mənzərə janrında işlədikləri rəsm əsərləri ziyarətçilər tərəfindən maraqla qarşılanır.

Ekspozisiyanın son hissəsində Azərbaycanın, eləcə də Naxçıvanın qədim mədəniyyətini, xalqımızın dini-ideoloji və fəlsəfi dünyagörüşünü, yüksək bədii təfəkkürünü özündə əks etdirən sənət nümunələri – Naxçıvan xalçaları nümayiş etdirilir. Bu xalçalar ornamentlərinin obrazlı və ifadəli olması ilə yanaşı, yüksək estetik keyfiyyətləri ilə də Azərbaycanda, eləcə də Naxçıvanda xalçaçılıq sənətinin qədim dövrlərdən mövcud olduğunu, yerli istehsala əsaslandığını və müasir dekorativ-tətbiqi sənətin məhz bu möhkəm təməl üzərində inkişaf etdiyini göstərir.

Bələdçi deyir ki, bu gün yerli sakinlərlə yanaşı, Naxçıvana ölkəmizin digər bölgələrindən üz tutan qonaqlar, eləcə də xarici turistlər də qalereyanı böyük maraqla ziyarət edirlər.

Muxtar respublikanın tarixi abidələri, əsrarəngiz gözəllikləri, füsunkar, gözoxşayan mənzərələri, bənzərsiz təbiəti xalqımızın milli sərvətidir. Bu sərvətlər isə ölkənin tanıdılmasında, xalqımızın mədəniyyətinin təbliğ edilməsində mühüm əhəmiyyətə malikdir. Bu gün qalereya bu vəzifəni layiqincə yerinə yetirməyə çalışır. Öz fondunu ildən-ilə zənginləşdirərək dəyərli sənət əsərlərini, milli-mədəni sərvətlərimizi özündə toplayır, gələcək nəsillər üçün qoruyub saxlayır və milli sərvətlərimizi belə gözəl rəsm əsərləri vasitəsilə təbliğ edir.

✍ **Gülcamal TAHİROVA**

# “Qəzəl qiraəti” adlı müsabiqə keçirilib



Müsabiqəni giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, ictimai-siyasi, fəlsəfi məzmunlu olmaqla, əsasən, lirik növ olan qəzəl Azərbaycan poeziyasının ən çox işlənən şeir formasıdır. Əruz vəzninin müxtəlif bəhrlərində yazılan qəzəl, əsasən, 5-12 beytdən ibarət olur. İlk beyti “mətlə”, son beyti “məqtə” adlanan bu poetik növün sonunda şair öz təxəllüs və ya adını göstərir.

Tarix-filologiya fakültəsinin təşkil etdiyi müsabiqədə 20-yə yaxın tələbə iştirak edib. Universitetlərarası müəllim-tələbə mübadiləsi çərçivəsində Türkiyənin Qars Qafqaz Universitetindən gələn 4 tələbə də müsabiqəyə qatılıb. Münsiflər heyətinin rəyinə əsasən Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə III kurs tələbəsi Şəlalə Qurbanova müsabiqənin qalibi olub. Həmin ixtisas üzrə II kurs tələbələri Nərmin Maqsudova II, Lamiyyə Bağırbəyli isə III yerə çıxıblar. Qaliblər universitetin diplom və hədiyyələri ilə mükafatlandırılıblar. Müsabiqədə iştirak edən digər tələbələr isə ali məktəbin fəxri fərmanı ilə təltif ediliblər. Qardaş ölkədən gələn tələbələr də müsabiqədə fərqlənənlər sırasında olublar.

Qeyd edək ki, münsiflər heyətinin tərkibində əslən azərbaycanlı olan, Qars Qafqaz Universitetində müəllim kimi fəaliyyət göstərən filologiya üzrə fəlsəfə doktoru, dosent Ellada Gərayzadə də olub. Məlumat üçün onu da bildirək ki, Türkiyə Cümhuriyyətinin bu ali təhsil ocağından gələn müəllim və 6 nəfər tələbə həftənin sonuna qədər Naxçıvan Dövlət Universitetində olacaq, müvafiq ixtisaslar üzrə dərslərdə iştirak edəcəklər.

**Səadət ƏLİYEVA**

*İdman*

# Daha 3 idmançımız Azərbaycan millisinə dəvət alıb



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən Ağır atletika bölməsi daha bir uğura imza atıb.*

Bölmənin 3 yetirməsi təlim-məşq toplanışında iştirak və ölkə birinciliyində çıxış etmək üçün Azərbaycan yığmasının heyətinə cəlb olunublar. Oğlanlardan Tərmenxan Babayev və Həsən Babayev (11 yaş) millinin düşərgəsinə yollanıblar. Əsas məqam isə ilk dəfə olaraq qız idmançımızın yığmaya cəlb olunmasıdır. Belə ki, Gülcahan Əliyeva 14 yaşlılardan ibarət Azərbaycan yığmasının heyətində çıxış edəcək.

Qeyd edək ki, təlim-məşq toplanışı Bakı şəhəri, Xırdalan qəsəbəsində yerləşən Zirvə İdman Klubunda olacaq.

# Yüngül atletlərimizdən uğurlu nəticə



Mayın 13-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə “Bakı Marafonu – 2018” keçirilib. Dövlət Bayrağı Meydanından start götürən marafon 21 kilometr məsafəni əhatə edib və Bakı Olimpiya Stadionunda başa çatıb.

“Küləyə qalib gəl!” şüarı altında keçirilən Bakı marafonu ardıcıl üçüncü ildir, təşkil olunur. Builki marafonda 18 min insan iştirak edib.

Bakı marafonunda Gəncə, Sumqayıt, Mingəçevir, Quba, Qusar, Lənkəran, Astara, Qəbələ, Şamaxı, Zaqatala, Şəki, Oğuz və digər bölgələrin sakinləri və idmançıları ilə yanaşı, 25-dən çox ölkənin təmsilçiləri də mübarizə aparıblar.

Marafonun təşkil olunmasında məqsəd idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallar ətrafında bir araya gətirmək olub.

“Bakı Marafonu – 2018”də Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının idmançıları da mübarizə aparıblar. Ən uğurlu nəticəni isə muxtar respublika idmançısı Əmrah Nağıyev qazanıb. O, finiş xəttini 12-ci keçib ki, bu da azərbaycanlı idmançılar arasında ən yaxşı nəticədir. Digər idmançımız Səfər Tağıyev isə 22-ci olub.

İdmançılarımız medallarla təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**

# Gənclər üçün ekskursiya təşkil olunub

***Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə əlaqədar gənclərin Yusif Küseyir oğlu türbəsinə ekskursiyası təşkil olunub.***



Türbənin bələdçisi Naxçıvan-Marağa memarlıq məktəbinin və ümumilikdə, Azərbaycan memarlığının ən böyük nümayəndələrindən biri olan memar Əcəmi Naxçıvaninin əsəri, tarixi-memarlıq abidəsi olan türbə haqqında məlumat verərək bildirib ki, türbə ikiqatlı olub hər iki qatı səkkizbucaqlı biçimdədir. Türbə kənardan birqatlı qüllə kimi görünür. Yusif Küseyir oğlu türbəsi ilk baxışdan tutumunun həndəsi təmizliyi, nisbətlərinin incəliyi və harmonik gözəlliyi ilə yadda qalır. Abidə xalq arasında “Atababa türbəsi” və ya “Atababa günbəzi” də adlanır. Səkkiz əsrdən çox yaşı olan türbə XX əsrin ortalarında bərpa edilmişdir. Bərpa işləri nəticəsində türbənin dağılmış hissələri düzəldilmiş, mühəndis qurğuları möhkəmləndirilmişdir. Divarlarının qalınlığı 80 santimetrdir. Türbədə biz ikiqat günbəz quruluşunun ən görkəmli, zəmanəmizə qədər əvvəlki şəklini mühafizə etmiş və indiyə qədər gəlib çatmış yeganə bir nümunəsini görürük.

Qeyd edək ki, ekskursiya Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunub.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 368**